**2019-cu ilin noyabr ayı ərzində vergi orqanına təqdim edilməli olan bəyannamələr, hesabatlar, ödənilməli vergilər və sığorta haqqları barədə**
**Y A D D A Ş**

- **Məcburi dövlət sosial sığortası və işsizlik sığortası üzrə 2019-cu ilin** oktyabr ayı üzrə hesablanmış sığorta haqları **2019-cu ilin noyabr ayının 15-dən** gec olmayaraq tam həcmdə nağdsız formada dövlət büdcəsinə ödənilməlidir.

**<u>Əmlak və torpaq vergisinin ödəyiciləri olan müəssisələr</u>**

- **2019-cu il üzrə hesablanmış torpaq vergisinin yarısını** cari ilin **noyabr ayının 15-dən** gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

- **2019-cu ilin 4-cü rübü üzrə hesablanmış əmlak vergisinin** cari ödəmələrini cari ilin **noyabr ayının 15-dən** gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**<u>2019-cu ilin oktyabr ayına görə vergi ödəyiciləri tərəfindən tədiyyəçisi olduqları</u>**

- **Əlavə dəyər vergisinin bəyannaməsi,**
- **Aksiz bəyannaməsi,**
- **Yol vergisinin bəyannaməsi,**
- **Mədən vergisinin bəyannaməsi,**
- **Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsi** və
- **Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan verginin bəyannaməsi**

2019-cu ilin **noyabr ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim edilməli və təqdim edilmiş bəyannamələr üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

- **Daşınmaz əmlak təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan sadələşdirilmiş verginin bəyannaməsi** 2019-cu ilin **noyabr ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

- **Muzdlu işlə əlaqədar 2019-cu ilin oktyabr ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi** 2019-cu ilin **noyabr ayının 20-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (ƏDV və Sadələşdirilmiş vergi ödəyiciləri bəyannaməni illik – 2020-ci ilin yanvar ayının 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri 2019-cu ilin 4-cü rübü üzrə bəyannaməni 2020-ci ilin yanvar ayının 21-dən gec olmayaraq təqdim edirlər).

- **Xüsusi notariusların 2019-cu ilin oktyabr ayı üzrə hesabladığı gəlir vergisi** 2019-cu ilin **noyabr ayının 20-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (2019-cu ilin 4-cü rübü üzrə bəyannamə 2020-ci ilin yanvar ayının 21-dən gec olmayaraq təqdim edilməlidir).

***Qeyd:***

- ✓ 20.01.2020-ci il tarixi qeyri-iş gününə təsadüf etdiyindən həmin tarixdə təqdim edilməli bəyannamələrin təqdim edilməsinin son müddəti 21.01.2020-ci il tarixə keçirilmişdir.